# "Azərişıq" ASC Ağdamın 8 kəndində yenidənqurma işlərinə start verib

"Azərişıq" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, "Azərişıq" Qarabağda" layihəsi çərçivəsində Ağdam rayonunun Əfətli kənd ərazi nümayəndəliyinə daxil olan 8 kənddə yenidənqurma işlərinə start verilib.

Müharibənin gedişində bu kəndlər erməni atəşinə məruz qalan zaman elektrik enerji təsərrüfatına ciddi ziyan dəymişdi. Ermənilərin atdığı çoxsaylı mərmilər bir çox yerdə xətt və dayaqları yararsız hala salmışdı.

İlkin mərhələdə 3 kənddə elektrik xətləri, dayaqlar, transformator məntəqələri və sayğaclar tamamilə yenilənəcəkdir. Əraziyə kifayət qədər mal-material göndərilib.

1200-dək abonentin yaşadığı Hacıməmmədli, Məmmədbağırlı və Əfətli kəndlərində işlərin yekunlaşması bir aya nəzərdə tutulub. Kəndlər yeni tikilmiş 35/10 kilovatlıq Əfətli yarımstansiyasından qidalanırlar.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin fərmanına uyğun olaraq işğaldan azad olunan Cəbrayıl, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Ağdam rayonlarının ərazilərində yerləşən xüsusi dövlət əhəmiyyətli binalar elektrik enerjisi ilə təmin edilib. Suqovuşan qəsəbəsinə isə Tərtərdən yeni 35 kilovatlıq xəttin çəkilişi işləri davam edir.